**Qazaxıstan Respublikası və Azərbaycan Respublikası arasında keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili barədə Qazaxıstan Respublikasının Maliyyə Nazirliyi ilə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi arasında**
**SAZİŞ**

Bundan sonra Tərəflər adlandırılacaq Qazaxıstan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi,

Qazaxıstan Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq haqqında 10 iyun 1997-ci il tarixli Sazişi rəhbər tutaraq,

gömrük nəzarətinin müasir forma və metodlarının inkişafında beynəlxalq əməkdaşlığın əhəmiyyətini qəbul edərək,

istər gömrük bəyannaməsinin təqdim edilməsindən öncə, istərsə də malların gömrük proseduru altında yerləşdirilməsi ilə bağlı gömrük əməliyyatlarının həyata keçirilməsinin sürətləndirilməsi hesabına xarici iqtisadi fəaliyyət iştirakçıları üçün əlverişli şəraitin yaradılmasının, ticarətə yardım üzrə tədbirlərin görülməsinin zəruriliyini dərk edərək,

Tərəf dövlətlərin arasında keçirilən mallara və nəqliyyat vasitələrinə münasibətdə gömrük nəzarətinin səmərəliliyinin artırılması məqsədilə ilkin məlumatların elektron mübadiləsi vasitəsilə gömrük əməkdaşlığının fəallaşdırılmasını zəruri hesab edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

## Maddə 1

Bu Sazişin məqsədləri üçün aşağıdakı terminlərdən istifadə olunur:

İlkin məlumatlar – gömrük əməliyyatları və prosedurlarının həyata keçirilməsindən sonra gömrük sərhədindən keçirilən mallar və nəqliyyat vasitələri haqqında Tərəflərin səlahiyyətli orqanlarının elektron qaydada ötürdüyü informasiya.

Məlumat mübadiləsinin texniki şərtləri – informasiya sistemlərindən istifadə etməklə Tərəflərin səlahiyyətli orqanlarının mübadilə etdiyi elektron məlumatların strukturunu, formatını və məlumatların tərkibini, mübadilə reqlamentini, mübadilə

üsulunu, informasiya sistemlərinin proqram və texniki vasitələrinə dair tələbləri müəyyən edən sənəd.

## Maddə 2

Tərəflər aşağıdakı məqsədlərə nail olmaq üçün ilkin məlumat mübadiləsini həyata keçirirlər:

- Tərəf dövlətlərin gömrük orqanlarında malların gömrük proseduru altında yerləşdirilməsi ilə bağlı gömrük əməliyyatlarının həyata keçirilməsinin sürətləndirilməsi;
- gömrük əməliyyatları və gömrük prosedurlarının həyata keçirilməsi üçün zəruri olan sənədlərin sayının azaldılması;
- risklərin idarəedilməsi sisteminin tətbiqi ilə mallar haqqında məlumatların təhlili əsasında malların gömrük nəzarətinin forma və metodlarının tətbiqinin minimuma endirilməsi.

## Maddə 3

Bu Sazişin müddəalarının həyata keçirilməsi üçün səlahiyyətli orqanlar:

- Qazaxıstan tərəfindən - Qazaxıstan Respublikası Maliyyə Nazirliyinin Dövlət Gəlirlər Komitəsi;
- Azərbaycan tərəfindən - Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi.

Yuxarıda qeyd olunan səlahiyyətli orqanların adları və ya funksiyaları dəyişdiyi təqdirdə, Tərəflər diplomatik kanallar vasitəsilə vaxtında bir-birini məlumatlandırırlar.

## Maddə 4

Səlahiyyətli orqanlar Tərəflərdən birinin dövlətinin ərazisindən ixrac edilən mallar və nəqliyyat vasitələrinə münasibətdə gömrük əməliyyatları və prosedurlarının həyata keçirilməsi zamanı əldə etdikləri məlumatların mübadiləsini təşkil edir və həyata keçirirlər.

İlkin məlumatlar mallar və nəqliyyat vasitələri təyinat və ya tranzit Tərəf dövlətin gömrük sərhədini keçməsindən ən azı altı saat əvvəl göndərilir.

İlkin məlumat mübadiləsi birbaşa səlahiyyətli orqanlar arasında, onların səlahiyyətləri çərçivəsində və dövlətlərinin qanunvericiliyinə müvafiq olaraq həyata keçirilir.

## Maddə 5

Bu Sazişə müvafiq olaraq əldə edilmiş məlumat konfidensial xarakter daşıyır və yalnız gömrük məqsədləri üçün istifadə edilə bilər. Bu məlumat başqa məqsədlər üçün yalnız onu təmin etmiş Tərəfin yazılı razılığı ilə istifadə edilə bilər.

Tərəflər bu Saziş çərçivəsində əldə edilmiş məlumatların konfidensiallığını Tərəf dövlətlərin qanunvericiliklərinə və Tərəf dövlətlərin iştirakçısı olduqları beynəlxalq müqavilələrə müvafiq olaraq təmin edirlər.

## Maddə 6

Bu Sazişin 4-cü maddəsinin müddəalarının həyata keçirilməsi üçün Tərəf dövlətlərin səlahiyyətli orqanları onların rəhbərləri tərəfindən təsdiq edilən Texniki şərtləri işləyib hazırlayır.

Tərəf dövlətlərin səlahiyyətli orqanları mallar və nəqliyyat vasitələrinə münasibətdə ilkin məlumatları Texniki şərtlərə uyğun olaraq məlumat həcmində təqdim edirlər.

## Maddə 7

Səlahiyyətli orqanlar ilkin məlumat mübadiləsi nəticəsində əldə edilmiş hər hansı məlumat uyğunsuzluğunun aşkar edilməsi halları barədə bir-birini məlumatlandırırlar.

## Maddə 8

Tərəflər özlərinin aşağıdakı fəaliyyətləri həyata keçirən səlahiyyətli struktur bölmələri barədə bir-birini məlumatlandırırlar:

- informasiya mübadiləsi və kommunikasiya vasitələrinin texniki şərtlərinin, məlumatların işlənməsi və ötürülməsi texnologiyalarının, həmçinin informasiyanın mühafizəsi üzrə tələblərin hazırlanmasının və razılaşdırılmasının həyata keçirilməsi;
- ilkin məlumatların konkret mal partiyası və (və ya) konkret nəqliyyat vasitələri ilə əlaqələndirilməsi məqsədilə mallar və nəqliyyat vasitələrinin eyniləşdirmə üsullarının müəyyən edilməsi;
- ilkin məlumat mübadiləsinə görə məsuliyyət daşıma.

## Maddə 9

Bu Sazişin həyata keçirilməsi məqsədilə səlahiyyətli orqanlar Tərəf dövlətlərin arasında keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumatların elektron mübadiləsi texnologiyasının hazırlanması üçün test sınaqları təşkil edirlər.

Səlahiyyətli orqanlar məktub mübadiləsi yolu ilə məlumatların ötürülməsi qaydasını, strukturunu və formatını, ilkin məlumatların mühafizəsi üzrə tələbləri, ilkin məlumatların əsas texnoloji prinsipləri, konkret mallar və nəqliyyat vasitələrinə dair ilkin məlumatların eyniləşdirilmə qaydasını, haqqında ilkin məlumat mübadiləsinin həyata keçiriləcəyi nəqliyyat növlərini, test sınaqlarının həyata keçiriləcəyi Tərəf dövlətlərin səlahiyyətli orqanlarının ərazi bölmələrinin siyahısını, eləcə də onların həyata keçirilmə müddətini razılaşdırırlar.

Bu maddədə qeyd olunan məsələlər razılaşdırıldıqdan sonra Tərəflər zəruri təşkilati və texniki tədbirlər keçirir və test sınaqlarını həyata keçirməyə başlamasına hazır olduqları barədə bir-birini yazılı şəkildə xəbərdar edirlər.

İlkin məlumat mübadiləsi üzrə test sınaqlarının həyata keçirilmə müddəti altı ay təşkil edir. Bu müddət zərurət yarandığı təqdirdə Tərəflərin qarşılıqlı razılığı ilə uzadıla bilər.

**Maddə 10**

Test sınaqları yekunlaşdıqdan sonra səlahiyyətli orqanlar mütəmadi əsasda ilkin məlumat mübadiləsinin başlanmasına dair qərar qəbul edirlər.

Səlahiyyətli orqanlar mütəmadi əsasda ilkin məlumat mübadiləsinin başlanmasına hazır olduqları barədə bir-birini yazılı şəkildə xəbərdar edirlər.

**Maddə 11**

Bu Sazişin həyata keçirilməsi üçün səlahiyyətli orqanlar məsləhətləşmələr aparır və bir-birinə ilkin məlumat mübadiləsi üçün zəruri olan məlumat-sorğu materiallarını təqdim edirlər.

**Maddə 12**

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilən və 14-cü maddədə müəyyən edilən qaydada qüvvəyə minən dəyişiklik və əlavələr edilə bilər.

**Maddə 13**

Bu Sazişin müddəalarının təfsiri və tətbiqi ilə əlaqədar Tərəflər arasında mübahisələr onlar arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

**Maddə 14**

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirməsi barədə yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı gündən qüvvəyə minir.

İstənilən Tərəf öz niyyəti barədə digər Tərəfə yazılı bildiriş göndərməklə bu Sazişin fəaliyyətini dayandırmaq hüququna malikdir.

Bu halda bu Sazişin fəaliyyəti qeyd edilən bildirişin alındığı tarixdən 30 gün sonra dayanır.

Bu Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, rus dilindəki mətndən istifadə olunacaqdır.

Bakı şəhərində "30" yanvar 2017-ci il tarixində hər biri qazax, Azərbaycan və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir.

**Qazaxıstan Respublikası**
**Maliyyə Nazirliyi**
**adından**

**Azərbaycan Respublikasının**
**Dövlət Gömrük Komitəsi**
**adından**